# İğdır cümhuriyyəti və Ələkbər bəy Tufan - 150



*Ələkbər bəy Tufan, 1920*

Mən həmişə məqalə yazarkən əvvəlki məqalələrimlə hazırda yazacağım məqaləm arasındakı oxşarlığı araşdırıram. İndi də bu mövzuya oxşar bir məqaləm barədə yenə söz açmaq istəyirəm.

"Ulu Naxçıvanım" adlı 3-cü kitabımda Azərbaycan Xalq Cümhuriyyətinin muxtar respublikası olan Araz Türk Cümhuriyyəti barədə yazmışdım. Bu Naxçıvanın ilk cümhuriyyəti idi.

Lakin, Araz Türk Cümhuriyyəti yaranan illərdən əvvəl Naxçıvanın bir çox ərazisini əhatə edən İğdır Cümhuriyyəti də qurulmuşdu. İndi yazacağım məqalənin mövzusu erməni qəsbkarları ilə 3 il son damla qanına qədər döyüşənlərin yurdu İğdır Cümhuriyyəti və onun ilk və tək başçısı, içindəki yaralara 100 il dözən Türkiyənin Milli Qəhrəmanı Ələkbər bəy Tufandır.

Hacı Ələkbər Ramazanov və ya bilinən adı ilə Ələkbər bəy Tufan 1870-ci ilin 14 yanvarında İğdırın Məlәkli kəndində anadan olmuşdu. Bölgədə şan-şöhrət qazanan Ramazanoğulları soyuna mənsub olan Tufan yaxşı təhsil almaq üçün İrəvana getmişdi və burada İrəvan Rus Gimnaziyasında təhsil almışdı. Ali təhsilini Rusiyada aldıqdan sonra Naxçıvana, Gəncəyə və Bakıya qayıdan Ələkbər 1905-ci ildə "Difai" təşkilatı ilə əlaqələr yaratmışdı. Rusiya imperializmindən ən çox əziyyət çəkən azərbaycanlılardan olan Ələkbər istiqlalın tərəfində idi və özü də dövlət qurmaq istəyirdi. Rusiyaya qarşı xüsusi planhazırladığı üçün və bu planı gerçəkləşdirmәkdən ötrü Rusiya Dumasında deputat olaraq çalışıb. Deputat olarkən öz haqqını və millətinin haqqını müdafiə edib və onun tərəfində olub.

Həmin illərdə də Ramazanov soyadını dəyişdirərək Tufan təxəllüsünü qəbul edib və Ələkbər bəy Tufan olaraq tanınıb.

1917-ci ildə olan böyük çevrilişdən sonra ən çox sevinənlərdən biri də Ələkbər bəy Tufan idi. O, həmin il Məhəmməd Əmin Rəsulzadəni tanıyıb. Rəsulzadə də onun kimi istiqlal sevdalısı idi. Lakin, Rəsulzadə Azərbaycanda dövlət qurmaq istədiyi kimi Ələkbər bəy Tufan da İğdırda dövlət qurmaq istəyirdi. Onlar nə vaxtsa birləşəcək, bir hərəkət edəcək, eyni millətdən olsalar da, onlar 2 dövlət olacaqdılar. Daha doğrusu, 4 dövlət. Sonradan yaranan Araz Türk və Türkiyə Cümhuriyyətlərini də saymaqla.

Və həmin il də Ələkbər bəy Tufan arzusuna yetdi. O, İğdır Cümhuriyyətinin lideri olan İğdır İcraiyyə Komitəsini qurdu və komitənin rəhbəri oldu. Həmin komitədə ermənilər də var idi. Çünki, Tufan heç kimlə tufan qopartmaq istəməzdi. Onun istəyi sülh idi, Sülh! Ona görə də, İğdırda yaşayan bütün xalqların nümayəndələrini bir yerdə topladı və İğdır İcraiyyə Komitəsini qurdu. Komitənin paytaxtı 1918-ci ilə qədər İğdır oldu. 1918-ci ildə Ələkbər bəy Tufan öz kəndində işləmək istədi. Həmin il İğdır Cümhuriyyətini qurdu və paytaxtını 4000 əhalisi olan Məlәkli kəndi etdi.

**İğdır Milli Cümhuriyyəti**

Başçı: Ələkbər bəy Tufan (Məlәkli); təhsil naziri: Abbasqulu bəy Yalçın (Vedibasar); müdafiə naziri: İsmayıl bəy Küllük (Vedibasar); İaşə Naziri: Süleyman Abbasoğlu (Kacər); daxili işlər naziri: Məşədi Abbas Vural (İğdır); maliyyə naziri: Şəfi Öcal (İğdır); ədliyyə naziri: Qasım bəy Obalı (İğdır); ziraət naziri: Qulam Əli (Sultanabad); jandarm komandiri: Həsən bəy Naxçıvanlı (Naxçıvan); katib: Əzizbəy Rəhimoğlu (Məlәkli)

**Kəndlərinə görə komandirlər:**

Əşirət: Əli Mirzə Bəy
Duzluca: Şamil Ayrım
Ağrı: Həmid Günəş.
Şərur kəndləri: Kərəm Günəş
İğdır: Hacı Mirzə Vural
Amarat: Muxtar bəy
Aralıq: Bilal Toksöz
Zəngibasar-Araz Irmağı Solu: Hüseyn Zəngi
Gərnibasar: Xudayar Qasımoğlu
Qaraqoyun-Vedibasar: Abbasqulu Bəy.

Bir sözü də deyim ki, İğdır Cümhuriyyəti Zaqafqaziya Seymi tərəfindən tanındıqdan sonra tanınan ilk türk Cümhuriyyəti adını qazanıb.

Birdən yenə erməni qəsbkarları İğdır Milli Cümhuriyyətini yağmalamağa başladılar. İrəvanyanı ərazilərdə və Vedibasarda kütləvi qırğınlar və erməni üsyanları baş qaldırmağa başladı. Vedibasardan başlayan qırğın virus kimi Məlәkliyə yayılanda artıq Ələkbər bəy Tufanın səbr kasası daşdı.

İğdır Milli Cümhuriyyətində səfərbərlik elan olundu. Gənclər könüllü cəbhəyə yollandılar. İğdır Milli Cümhuriyyətinin 1 milyon nəfərdən çox ordusu General Dro adı ilə şərəf itirib namussuzluq qazanan drastamat kanayan və General Nazarbekovun ordusuna tab gətirə bilməzdi. Ona görə də, yenidən səfərbərlik elan edildi. "Qardaş Köməyi" və ya "Cəmiyyət-i-Xeyriyyə" Cəmiyyətinin bütün üzvləri hərbi yardımlar etdilər. Artıq əsgərlər çoxalıb, coşub-daşırdı. Ələkbər bəy yenə bunu yetərli bilmədi. Əsl Qardaş Köməyi lazım idi!

Ona görə də, Ələkbər bəy Tufan Osmanlı ordusundan kömək istədi. Bir neçə gün sonra padşah Vahdəddin İğdıra Kazım Qarabəkirin ordusunu göndərdi. O vaxt Kazım Qarabəkir Atatürkün ən yaxın dostlarından biriydi. Atatürkün dərdi bütün Osmanlı olduğu üçün İğdıra gələ bilmədi. Hərbi yardımdan əlavə ərzaq sarıdan yardımlar da çoxaldı.

Ən sonda Bakını qazanan AXC-nin əsgərlərinin də yardımı Əsl Qardaş Köməyi idi! Artıq Tufanın tufan qopartmağı zamanıydı!

12 noyabr 1920-ci ildə artıq Drastamat Kanayanın ordusu məhv edildi. Kanayan məğlubluğun acı meyvəsini daddı və geri çəkildi. TÜRKÇÜLÜK QAZANDI!



*Ələkbər bəyin oğlu,*
*İğdır Bələdiyyə Başçısı*
*Tələt Ramazanov Tufan.*

Həmin gün Ələkbər bəy Tufan Turanın daha çox bölünməsini istəmədi və İğdır Milli Cümhuriyyətini ləğv etdi.

Ələkbər bəy Tufan söz sərrafı və hazırcavab idi. Həmin illərdə Birinci Dünya Müharibəsində ABŞ-ın nümayəndəsi olan General Ceyms Harbord Ələkbər bəy Tufana "Böyük Ermənistanı məğlub etmə bayramını yaşayırsınız" sözünü dedi. Tufan tufanını qopdurdu:

-Bəs necə olur ki, "Böyük Ermənistan"ın yarısından çoxunda Azərbaycan Türkləri yaşayır? General bəy, Sizin dediyiniz bu "Böyük Ermənistan"da bir erməni də görmədim. Biri Dro idi, o da qorxusundan itildi".-deyə cavabını verdi. Həmin sözlər İğdırın Osmanlıda qalmasının ABŞ tərəfindən təsdiq olmasının çoxlu səbəblərindən biri kimi sayılır. Bu səbəblər olmasaydı, hətta, Naxçıvan belə ermənilərin olardı.

Ələkbər bəy Tufan Araz Türk Cümhuriyyətinə də hərbi yardımlar edirdi. Bir neçə dəfə cümhuriyyətə səfər də etmişdi.

Türkiyə Cümhuriyyəti qurulduqdan sonra da Iğdırda yaşadı Tufan. Ölənə qədər Iğdırda qaldı. Döyüşdə atasını, anasını, hətta qızını da itirmişdi. Bu acıyla neçə illər yaşadı. Çünki, ona təsəlli həyat yoldaşı Zivər, oğlu Tələt idi. Tələt adını Tələt Paşanın adına yaraşdırmışdı. Tələt Paşa özü də Tufan ailəsində Tələt adlı bir körpənin yenicə doğulduğunu bilib çox sevinmiş, Ələkbər bəyə gözaydınlığı vermişdi. Tələt Paşanın qətli ən çox Tufanı kədərləndirmişdi.

Tələtin 1 yaşında, 1916-cı ildə həmin "Qardaş Köməyi "dərnəyi Sarıqamışdakı zərərçəkmişlərin hərəsinə 90 Rəşad (Sultan Mehmed Rəşadın adına yaraşdırılan sikkə) qızıl bağışlanmışdı.

Tufan 1920-ci illərdə Atatürk tərəfindən Türkiyənin Milli Qəhrəmanı adına layiq görülən ilk Azərbaycan Türklərindən biri idi. Bəlkə də, ilki idi. O qədər qəhrəmanı var ki bu Türkiyənin.

Türkiyənin Milli Qəhrəmanı Ələkbər bəy Tufan Məlәklidən Sürməliyə köç edəndə "Türk Ocağı"nın başçısı oldu və yurda qayıdan türklərin məsələlərini həll etmək üçün çalışdı.

Atasının, anasının, İrəvandan Naxçıvan sərhəddinə qədər uzanan torpaqlarının, qızının həsrətində olan Milli Qəhrəman Ələkbər bəy Tufan 13 noyabr 1970-ci ildə İğdırın qurtuluşunun 50-ci illiyində 100 yaşında vəfat etdi. Tam 100 yaş yaşadı. 100 yaş!

Məlәklidə dəfn olunan Ələkbər bəyin oğlu Tələt Tufanın milliyətcə kürd olması barədə məlumatlar da yazılır. Lakin, bu məlumatların yalan olması hər dəfə sübut olunub. Tələt Tufan MHP-nin üzvü olaraq İğdır Bələdiyyə Başçısı olmuşdu(1968-1980). 17 aprel 1999-cu ildə ad günündən 2 gün sonra vəfat etdi. Ondan qalan övladları Cahid, Xubilay, Həsən, Rəfiyə, Atalay və Hülya Tufanlardır.

Mən bütün Tufan ailəsini bu qeydlərimdə xatırlayıram və onları Turanın Milli Qəhrəmanı hesab edirəm!

**22.04.2020 saat 15-33**



*Sevindik NƏSİBOĞLU,*
*gənc yazar*